1. **Aşağıdakı cümlədə mənsubiyyət şəkilçili neçə isim var?**
**"Anasının mülayim siması ciddi və qayğıkeş bir vəziyyət alar, arvadı Fəridənin üzünə xəfif bir sarılıq qonar, qara bəbəkləri bir əndişə və vahimə ilə tez-tez hərəkət edərdi".**
A) 2 B) 4 C) 1 D) 5 E) 3

2. **Bayatının qrammatik təhlili ilə bağlı fikirlərdən biri yanlışdır?**
**Əzizim sinə dağlar,**
**Xalların sinə bağlar,**
**Gözəllərdə qaydadır,**
**Üz pörtər, sinə bağlar.**
A)3-4-cü misra tabeli mürəkkəb cümlədir.
B) 3-cü misra baş cümlədir.
C) 4-cü misra baş cümlədən asılı mübtəda budaq cümləsidir.
D) Budaq cümlə baş cümləyə intonasiya ilə bağlanıb.
E) Budaq cümlə həmcins xəbərlidir.

3. **Uyğunsuzluğu göstərin.**
A) "Qızım, atan sizə bir toy edəcək ki, tərifi tamam Qarabağda söylənəcək", - deyə Şəhrəbanu xanım dilləndi. (Vasitəsiz nitq təyin budaq cümləsidir, sxemi belədir: "V",-m. )
B) "Mən çox xoşbəxtəm ki, sənin kimi qardaşım var", -deyə Bahar ürəyində Mərdanla danışırdı. (Vasitəsiz nitq səbəb budaq cümləsidir, sxemi belədir: "V", - m. )
C) Əli Nəzmi yazırdı: "Zərbəni kim ki yeyibdir, unudubdur özünü" (Vasitəsiz nitq mübtəda budaq cümləsidir, cümlənin sxemi belədir: M:"V". )
D) Ana deyinə-deyinə: "Uşaqlıqda necə idisə, indi də elədir", - dedi. (Vasitəsiz nitq, tərzi-hərəkət budaq cümləsidir, sxemi belədir: M:"V",-m. )
E) Direktor əsəbi halda: "Kim dərsə gecikibsə, içəri buraxmayın!" - dedi. (Vasitəsiz nitq tamamlıq budaq cümləsidir, sxemi belədir: M:"V!" -m. )

4. **"Dil nə qədər açıq, sadə olsa, fikir bir o qədər gözəl və məqbul olar." (F.Köçərli) Verilmiş tabeli mürəkkəb cümlə ilə bağlı fikirlərdən biri səhvdir:**
A) Budaq cümlə baş cümləyə bağlayıcı sözlə bağlanmışdır.
B) Baş cümlə nəqlidir.
C) Budaq cümlənin xəbəri felin şərt, baş cümlənin xəbəri felin xəbər şəklindədir.
D) Qarşılaşdırma budaq cümləsidir.
E) Budaq cümlə əvvəl, baş cümlə sonra işlənmişdir.

5. **Hansı sözün tələffüzü düzgün, yazılışı səhv verilmişdir?**
A) əsgik [əsgik]
B) ümid [ümüt]
C) qaynata [qaynata]
D) pəhləvan [pəhlivan]
E) məsum [mə:sum]

6. **"Sənətkarlıq örnəyi" birləşməsində asılı tərəfin fonetik təhlili ilə bağlı səhvləri tapın.**
**1.deyilişi ilə yazılışı fərqlidir.**
**2.sözdə iki [r] samiti işlənmişdir.**
**3.sözdə [g] samiti işlənmişdir.**
**4.sözdə [x] kar samitdir, cingiltili qarşılığı [ğ] – dır.**
**5.vurğusu dördüncü hecaya düşür.**
A) 1,2,5 B) 2,3,4 C) 3,4 D) 1,4,5 E) 2,4

7. **Hansı cümlədə feli sifət tərkibinin asılı tərəfi əlavəli işlənib?**
A) Ali məktəbə -- BDU-ya daxil olmaq Sevincin ən böyük arzusu idi.
B) Abituriyentlər—ali məktəbə daxil olmaq istəyənlər imtahanlara ciddi hazırlaşırdılar.
C) Müqəddəs kitabı -- "Quran"ı oxuyan insanlar haqqın yoluna yönəlmiş kəslərdir.
D) Mən rəfiqəmi kəndə -- nənəmgilə aparmaq istəyirəm.
E) Baharın -- yazın barı qapınızdan əskik olmasın!

8. **Hansılar şəxssiz cümlədir?**
**1. Qarşı səngərdə tam sakitlik idi.**
**2. Hər yay gedib ona baş çəkirdim.**
**3. Mənim ona yazığım gəlirdi.**
**4. Şaxtalı bir qış günü idi.**
**5. Onun da orada olduğunu deyirlər.**
A) 2, 4, 5 B) 1, 3, 4 C) 2, 3, 5
D) 1, 3, 5 E) 1, 2, 5

9. **Nümunədə ədatın mənaca hansı növü işlənmişdir?**
**Ancaq haqqa arxalan, haqqa söykə arxanı,**
**Mübarizə sevərmi döyüşlərdən qorxanı?**
**(Z.Yaqub)**
A) dəqiqləşdirici, əmr
B) məhdudlaşdırıcı, sual
C) dəqiqləşdirici, sual
D) məhdudlaşdırıcı, qüvvətləndirici
E) sual, əmr

10. **Eyniköklü sözlərə aid düzgün fikirləri müəyyən edin.**
**1.Eyni bir sözdən əmələ gəlir.**
**2.Həm eyni, həm də müxtəlif nitq hissəsi olur.**
**3.Yemlik, yemlə, yemiş eyniköklü sözlərdir.**
**4.Eyniköklü sözlər həm leksik, həm də qrammatik şəkilçilər vasitəsilə düzəlir.**
**5.Eyniköklü sözlər öz formasına görə də dəyişə bilir, yəni isimlər hallanır, mənsubiyyətə görə dəyişir, fellər zaman və şəxs şəkilçisi qəbul edir.**
A) 2,4 B) 3,4,5 C) 3,4 D) 1,3,4 E) 1,2,5

11. **"Məsləhəti bu oldu ki, xəstəliyin dəqiq diaqnozu qoyulsun" cümləsinin növünü müəyyənləşdirin.**
A) təyin budaq cümləli tabeli mürəkkəb cümlə
B) tərzi – hərəkət budaq cümləli tabeli mürəkkəb cümlə
C) xəbər budaq cümləli tabeli mürəkkəb cümlə
D) mübtəda budaq cümləli tabeli mürəkkəb cümlə
E) tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə